# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ORQANİK KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Amin Babayev, Vüqar Babayev**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi, amin.etkt@mail.ru*

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yaxşılaşdırılması və torpaqların deqradasiyasının qarşısının alınması üçün dünyanın bir çox ölkələrində orqanik məhsulların istehsalı genişləndirilmişdir. Belə ki, hazırda dünyanın 185 ölkəsində orqanik kənd təsərrüfatı məhsullarının istehsalı həyata keçirilir.

Digər tərəfdən orqanik məhsullar ənənəvi məhsullara görə orta hesabla 40-80% daha bahalıdır. Bu səbəbdən statistik məlumatlara əsasən, orqanik məhsul istehsalının həcmi və orqanik qaydalarla idarə olunan sahələrin sayı getdikcə artır. Dünya ölkələrində 1999-cu ildə orqanik məhsul 11,0 milyon hektar ərazidə istehsal olunurdusa, 2015-ci ildə bu rəqəm 50,9 milyon hektara çatmışdır. 2016-cı ilin statistik məlumatına əsasən Azərbaycan Respublikasının 37,630 hektar ərazisi orqanik kimi sertifikatlaşdırılmışdır. Ölkədə fəaliyyət göstərən xarici sertifikatlaşdırma qurumları sahə üzrə Azərbaycanda 305 istehsalçı, 50 emalçı və 50 idxalatçı qeydə almışlar.

İşğaldan azad edilmiş torpaqlarda orqanik kənd təsərrüfatı məhsulları istehsalı üçün müvafiq pozitiv əsasların (coğrafi, iqlim, mühit) olmasına baxmayaraq, hazırda bu potensialdan tam istifadə edilmir. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı insan sağlamlığı və ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş torpaqlarda orqanik kənd təsərrüfatının inkişafına kompleks yanaşmağa zərurət yaranır. Həmin ərazilərdə ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi ölkədə ekoloji təmiz məhsulların istehsalının artırılmasına və əhalinin sağlamlığının qorunmasına, torpaqların münbitliyinin bərpa edilməsinə və deqradasiyasının qarşısının alınmasına, məhsuldarlığın və məhsul istehsalının yüksəldilməsinə, idxaldan asılılığın azaldılmasına, ərzaq təhlükəsizliyini tamamilə daxili istehsal hesabına təmin edilməsinə və ixrac yönümlü orqanik kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsinə əsaslı zəmin yaradacaqdır. Buna nail olmaq üçün biz işğaldan azad edilmiş torpaqlarda 2025-ci ilədək təxirə salınmadan aşağıda qeyd olunan problemlərin həllinə nail olmalıyıq:

- işğaldan azad edilmiş torpaqlarda orqanik kənd təsərrüfatının hüquqi qanunvericilik bazasını hazırlanması;
- orqanik kənd təsərrüfatının işğaldan azad edilmiş torpaqlarda ümumi kənd təsərrüfatı siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməsi;
- işğaldan azad edilmiş ərazilərdə orqanik təsərrüfatçılığa keçidlə əlaqədar dövlət dəstəyinin təşkili;
- işğaldan azad edilmiş ərazilərdə sertifikatlaşdırılmış təsərrüfatların təşkili;
- işğaldan azad edilmiş torpaqlarda beynəlxalq və milli orqanik standartlara uyğun "Qarabağ Orqanik" brendi ilə sertifikalaşdırılmış məhsulların istehsalının təşkili;
- işğaldan azad edilmiş torpaqlarda orqanik fermerçiliklə məşğul olanlara dövlət subsidiyalarının verilməsi;
- işğaldan azad edilmiş torpaqlarda kənd əhalisi arasında və orqanik fermerlərdə peşəkar biliklərin formalaşdırılması;
- işğaldan azad edilmiş torpaqlarda həm dövlət, həm də özəl təmayüllü orqanik məsləhət-informasiya xidməti mərkəzlərinin təşkili;
- ölkə ərazisində "Qarabağ Məhsulları"adı altında orqanik marketlərin yaradılması.

Eyni zamanda işğaldan azad edilmiş torpaqlarda orqanik kənd təsərrüfatının inkişafı ilə əlaqədar aşağıda göstərilən problemlər öz həllini gözləyir:

- həmin ərazilərdə nümunəvi (pilot) təsərrüfatlarının yaradılması;
- orqanik məhsul istehsalının inspeksiyası və sertifikatlaşdırılması;
- orqanik kənd təsərrüfatı üzrə xidmət müəssisələrinin (toxum, gübrə, bitki mühafizə vasitələri və s.) təşkili;
- orqanik məhsul istehsalçılarının fəaliyyətini stimullaşdırmaq üçün qiymət siyasətinin həyata keçirilməsi;
-orqanik fermer məktəblərinin və ixtisaslaşmış kursların yaradılması;
- kütləvi informasiya vasitələrinin orqanik məhsulların istehsalı ilə əlaqədar fəaliyyətinin gücləndirilməsi;
- "Qarabağ Orqanik" brendi ilə məhsulların sərgi və yarmarkalarının təşkili;
- İşğaldan azad edilmiş torpaqlarda orqanik kənd təsərrüfatının inkişafına strateji investorların cəlb olunması.